**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaşlar Allahverdiyev Vaqif Cəmil oğlu, Əliyev Raquf Məndil oğlu, Əliyev Sabir Əli oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 243 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 81 saylı Beyləqan seçki dairəsi üzrə Beyləqan bələdiyyəsi üzvlüyünə namizəd Allahverdiyev Vaqif Cəmil oğlu və digərləri, Təzəkənd bələdiyyəsi üzvlüyünə namizəd Əliyev Raquf Məndil oğlu və digərləri, Orta Əlinəzərli bələdiyyəsi üzvlüyünə namizəd Əliyev Sabir Əli oğlu və digərləri 2009-cu il dekabrın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, Beyləqan, Təzəkənd və Orta Əlinəzərli bələdiyyələri üzrə seçki məntəqələrində səslərin sayılıb, hesablanmadan polislə birlikdə seçki sənədlərinin dairə seçki komissiyasına aparıldığını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır. Belə ki, 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının sədri A.Əliyev və digər komissiya üzvlərinin 81 saylı Beyləqan seçki dairəsinin hər üç bələdiyyəni əhatə edən seçki məntəqələri məntəqə seçki komissiyası üzvlərinin, bələdiyyə üzvlüyünə seçilməmiş namizədlər Tağıyev İlkin Vaqif oğlu, Feyziyev Vahid İbrahim oğlu, Bəndəliyev Arzu Zakir oğlu, Ağayev Ramiz Əvəz oğlu, Məmmədov Əvəz Əbdüləzim oğlu, Əhmədov Əhməd Dadaş oğlu, Əliyev Fətullah Adışirin oğlu, Bəşirov Akif Hüseyn oğlu, Quliyev Ədalət Saday oğlu, həmçinin müvafiq seçki məntəqələrində müşahidəçi olmuş Əhmədov Ramiz Rza oğlu, Mirzəyev Anar Məhərrəm oğlu, Məmmədov Akif Əjdər oğlu, Cəmilov Telman Camal oğlu, Tarverdiyev Raqub Tarverdi oğlu, Xıdırov Zaur Əkbər oğlu, İmanov Ramiz Ramazan oğlu, Mirzəyev Natiq Hümbət oğlu, Hüseynov Yusif Bəylər oğlu, Quliyev Xaliq Xosrov oğlu, Məmmədov Famil Qədir oğlu, Abbasov Şəmsəddin Qafar oğlu, Məmmədova Validə Yunis qızının verdikləri izahatlardan Beyləqan, Təzəkənd və Orta Əlinəzərli bələdiyyələrinə keçirilmiş seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi, səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolun dərhal tərtib edilərək, ictimailəşdirildiyi təsdiq olunmuşdur. Eyni zamanda 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının sədri A.Əliyevin və komissiya üzvlərinin izahatında müraciət edən şəxslərin adından hər üç bələdiyyəyə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaşlar Allahverdiyev Vaqif Cəmil oğlu, Əliyev Raquf Məndil oğlu, Əliyev Sabir Əli oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 243 saylı birgə müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |